# Söz qədər uzun və dəyərli



**Mənə elə gəlir ki, onun uzun-uzadı təqdimata ehtiyacı yoxdur. Gənc olmasına baxmayaraq, bu gün Azərbaycan teleməkanında, elmində, publisistikasında, poeziyasında Bəhruz Niftəliyev imzası öz möhrünü vurub. Televiziya nəzəriyyəsi üzrə ən gənc alimlərdən biri olan Bəhruzun, poeziya dünyası ilə oxucuları o hələ tələbə olarkən tanışdılar.**

Odur ki, onun poeziyası da, publisistikası da bir-biri ilə "mehr-məhəbbətlə möhürlənib". Sözündəki bütövlük, kamillik onun sözünə, imzasına sahib olan bir söz əhli olduğundan xəbər verir və gənc yazar elmdə də, poeziyada da, publisistikada da özünəməxsus iz qoyur.

Bəhruz Niftəliyev bu gün Azərbaycan teleməkanında püxtələşmiş bir kadrdır. Hələ on iki yaşında Azərbaycan Televiziyasında yayımlanan "Pəncərə" uşaq verilişinin aparıcısı kimi tanınan Bəhruz, hazırda Mədəniyyət kanalında yayımlanan "O" və "Yadigarlar" verilişlərinin aparıcısı kimi tamaşaçı rəğbətini qazanıb. Bir sıra sənədli-bədii filmlərin müəllifidir. Bəhruzun Qərbi Azərbaycandan deportasiya edilən ailələrin yaşadığı, şahidi olduğu hadisələrdən bəhs edən "Mənim ailəm" sənədli-bədii filmlər silsiləsi müəllifin ata yurduna bağlılığının, Vətənpərvərliyinin növbəti təzahürüdür.

Onun Vətənə, torpağa bağlı olan "Bir ovuc torpaq", "Bir nəslin faciəsi", "Salam Şuşa", "Vətən aşiqləri" sənədli filmlərinin də adlarını çəkə bilərik. Bu filmlərin mövzusu bir olsa da, "tempi, ruhu ilə bir-birindən fərqlənirlər". Bu da Bəhruzun özünəməxsus yaradıcılığa malik olmasından irəli gəlir.

Çoxlarından fərqli olaraq Bəhruz televiziyaya yalnız ekranda görünmək xatirinə gəlmədi. Əksinə, öyrənmək, bilmək, öyrəndiklərini və bildiklərini cəmiyyətə çatdırmaq məqsədilə bu "sehirli güzgü"nü daha dərindən öyrənməyi qarşısına məqsəd qoydu və ustadların yetişdiyi bir məktəbdə, Ana televiziyamızda püxtələşdi, sevildi, məşhurlaşdı.

İllər keçdi. O, təcrübə ilə yanaşı, nəzəriyyəni də daha mükəmməl öyrənməyi qarşısına məqsəd qoydu. Magistir təhsili ilə kifayətlənmədi. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dissertantura təhsilinə yiyələndi. 2022-ci ildə B.Niftəliyev sənətşünaslıq üzrə fəlsəfə doktoru kimi şərəfli bir ada layiq görüldü. Bu il Bəhruza daha bir uğurda bəxş etdi. O, həmin il Prezident mükafatına layiq görüldü.

Hazırda Azərbaycan televiziya məkanının maraqlı mavi ekranlarından biri də "Mədəniyyət" kanalıdır və Bəhruz bu telekanalın direktor müavinidir. Mədəniyyət aləmində baş verən ən son yeniliklər, maraqlı hadisələr, yarışmalar, yubileylər, görüşlər bu kanalda hazırlanan müxtəlif verilişlərdə əhatəli şəkildə öz əksini tapır və tamaşaçıya çatdırılır. Bu da milli mədəniyyətimizin ən yaxşı nümunələrini üzə çıxarır, xalqımızı dünyaya təqdim etməklə yanaşı, dünya ölkələrinin ən gözəl mədəniyyət, incəsənət, elm, təhsil, mənəviyyat nümunələrini yerli tamaşaçılara çatdırmaq, onların intellektual səviyyəsinin, zövqünün zənginləşməsi prosesində iştirak edir. Təbii ki, bu verilişlərin əksəriyyətinin ərsəyə gəlməsində Bəhruzun da payı var.

Təəssüf ki, son illər bəzi telenəzəriyyəçilər tərəfindən belə bir yanlış fikir formalaşdırılıb ki, "televiziya tamaşaçının arxasınca getməlidir". Məncə, çox yanlış bir fikirdir. Əksinə, televiziya tamaşaçısını arxasınca aparmağı bacarmalıdır. Gənc alim Bəhruz Niftəliyev də məhz bu fikirdədir. Müəllifin "Televerilişlərin struktur problemləri" adlı monoqrafiyasında da diqqətimi daha çox cəlb edən, onun "tamaşaçının arxasınca getmək doğru deyil, tamaşaçını televiziyaya cəlb etmək lazımdır" fikri oldu. Tamamilə doğru fikirdir. Tamaşaçılar müxtəlif təbəqələrdən ibarətdir. "Onu daha yaxşı, daha səviyyəli verilişlərə baxan tamaşaçıya çevirməliyik" söyləyən müəllif əsərində bunun yollarını da geniş şəkildə izah edir.

Müəllif Azərbaycan televiziya məkanında hazırlanan verilişlərin strukturundakı problemləri elmi cəhətdən geniş şəkildə araşdırıb. O, telekanallarda yayımlanan müxtəlif məzmunlu və formatlı verilişlərin strukturuna nəzər salaraq, oradakı problemləri sadalamaqla kifayətlənmir, həm də onların aradan qaldırılması, həlli yollarını göstərir. Bu sahədə dünya təcrübəsindən bəhrələnməyi tövsiyə edərək söyləyir ki, "televiziya insanlığı, bəşəri duyğuları, ali hissləri təbliğ etməlidir!".

B.Niftəliyev bu sahəyə aid yazdığı məqalələrində, elmi əsərində ölkəmizdə fəaliyyətdə olan telekanallarda yayımlanan istər informasiya, istər şou verilişlərindəki struktur problemlərini, qüsur və nöqsanlarını elmi əsaslarla açıqlayır. Müəllif fikirlərini, tövsiyələrini əsaslandırmaq üçün yalnız elmi mənbələrlə kifayətlənmir, həm də CNN və STAR TV nüfuzlu telekanalların təcrübəsinə istinad edir.

Onun bu mövzuya həsr etdiyi həm məqalələrindən, həm də elmi əsərindən bəlli olur ki, müəllif mövzuya məsuliyyət və sevgi ilə yanaşıb. Ona görə də maraqlı, dəyərli fikirlər, tövsiyələr ortaya qoyub. Məqalələr də və əsərin də diqqətimi cəlb edən məsələlərdən biri də onların sadə və aydın dildə yazılması oldu. Bu, bəlkə də, ondan irəli gəlir ki, Bəhruz həm də bədii yaradıcılıqla məşğul olur. Onun bədii-publisistik məqaləri, esseləri və şeirləri müntəzəm olaraq yalnız Azərbaycanda dövrü mətbuatda deyil, həm də qardaş Türkiyədə çap olunur. O, tez-tez Türkiyənin "Telmih" dərgisində söz dünyası ilə oxucularının görüşünə gəlir.

Deyirlər ki, sözün öz işığı var". Əslində, Bəhruz da elə gözünü bu işıqda açıb. Uşaqlıqdan "sözlə yoğrulan" bir qələm əhlidir. "Aşıq gördüyünü çalar"- deyirlər. Bəhruz ömrünü-gününü "sözə çulğalamış", söz aləmində öz dəsti-xətti olan, istedadlı publisist, Əməkdar jurnalist Flora Xəlilzadənin ocağında dünyaya gəlib və söz, sənət işığında böyüyüb. Qardaşı Elnur Niftəliyev də onun kimi tanınmış gənc alim və söz əhlidir. Bəhruzun ömür-gün yoldaşı da jurnalistdir. Bu ocağın bir ruhu, bir qayəsi var -söz. Sözə bürünüb, söz qədər uca, dəyərli, pak bir ömür sürür bu ocağın sakinləri

Nə mavi ekranın cazibəsi, nə də layiq olduğu mükafatlar, fəxri adlar, məşhurluğu bəzilərindən fərqli olaraq Bəhruzu təkəbbürlü etmədi. Əksinə, Bəhruz Azərbaycan teleməkanını daha parlaq, aydın görmək və sevmək üçün zəhmətə qatlaşdı. Həm nəzəriyyəsini, həm də təcrübəsini öyrəndi. Öyrəndiklərini öyrətmək üçün çoxsaylı elmi məqalələr yazdı, dissertasiya müdafiə etdi, monoqrafiya hazırladı. Bax, bütün bunlar mənə əminlik verir ki, Bəhruz bu sahənin istedadlı və təcrübəli mütəxəssislərindən biridir.

Bəhruz dünyaya yaz fəslinin ən gözəl çağında, mayın 8-də göz açıb. Bu gün öz söz dünyası olan B.Niftəliyevin doğum günüdür. Ona söz qədər uzun və dəyərli ömür arzulayırıq.

**Qərənfil Dünyamin qızı,**
**Əməkdar jurnalist**